AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNİN KOLLEGİYASI

**QƏRAR**

№ 4/1 «10» iyun 2015 il
**Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 29 avqust tarixli 293 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı Qaydası"nın və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 29 avqust tarixli 294 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi Qaydası"nın icrası haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 29 avqust tarixli 293 və 294 nömrəli Qərarları ilə təsdiq edilmiş "Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı Qaydası"nın və "Mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi Qaydası"nın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Kollegiyası

**Qərara alır:**

1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mədəni sərvətin mühafizə şəhadətnaməsinin verilməsi səlahiyyətləri Azərbaycan Milli İncəsənət Muzeyinin, Azərbaycan Xalça Muzeyinin, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin və Azərbaycan Milli Kitabxanasının direktorlarına verilsin.
2.Azərbaycan Milli İncəsənət Muzeyinin, Azərbaycan Xalça Muzeyinin, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin və Azərbaycan Milli Kitabxanasının direktorlarına tapşırılsın:
2.1. mədəni sərvətlərin ekspertizasını keçirmək məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdıraraq 10 gün müddətində ekspert komissiyalarının tərkibini təsdiq etsinlər;
2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 29 avqust tarixli 293 və 294 nömrəli Qərarları ilə təsdiq edilmiş "Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı Qaydası"nın və "Mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi Qaydası"nın icrasını təmin etsinlər;
2.3. Mədəni sərvətin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və ya mədəni sərvətlərin mühafizə siyahısına aid olması barədə yoxlama

№115 11.06.15

aparsınlar. Ekspertiza nəticəsində mədəni sərvətlərin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və ya mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi zərurəti müəyyən olunarsa, təqdim edilən mədəni sərvətləri şəxsin mülkiyyət hüququ pozulmadan Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və ya mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi məqsədilə Nazirliyin Mədəniyyət müəssisələri və xalq yaradıcılığı şöbəsinə təqdim etsinlər;

2.4. Qeyd olunan qaydaların icrası ilə bağlı hər rüb Nazirliyin rəhbərliyinə hesabat təqdim etsinlər.

3. "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ekspert komissiyalarının əsasnamələri, fəaliyyəti və tərkibləri haqqında" Mədəniyyət və Turizm Nazirliyinin 03 avqust 2006-cı il tarixli 2/1 nömrəli Kollegiya Qərarı qüvvədən düşmüş hesab edilsin.

4. Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 29 avqust tarixli 293 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı Qaydası" və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 29 avqust tarixli 294 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi Qaydası".

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının**
**mədəniyyət və turizm naziri** — **Əbülfəs Qarayev**

**Kollegiyanın məsul katibi** — T. Əliyeva — **Tahirə Əliyeva**